
İsmayıl Şıxlı-90

# Əbədiyaşar yazıçı

**Azərbaycanın xalq yazıçısı, görkəmli ictimai xadim, alim, pedaqoq İsmayıl Şıxlı ədəbiyyatımıza bir çox qiymətli əsərlər bəxş etmişdir. İsmayıl Şıxlı ürəklərdə, talelərdə yaşayan bütöv şəxsiyyət, xalqın qəlbində öz əzəmətli heykəlini ucaltmış müdrik insandır.**

İsmayıl Şıxlı bütün nəsillərə və zamanlara örnək olası bir ömür yaşamış, xalqın sevgi və məhəbbətini qazanmışdır. Ulu öndərimiz, milli liderimiz Heydər Əliyev İsmayıl Şıxlı haqqında qiymətli, dəyərli sözlər söyləmişdir:

"İsmayıl Şıxlının keçdiyi böyük, dəyərli, nümunəvi həyat yolu hər bir azərbaycanlı üçün örnəkdir."

İsmayıl Şıxlı xalq qarşısında öz borcunu şərəflə, ləyaqətlə yerinə yetirmiş sənətkarlarımızdandır, xalqımıza, mədəniyyətimizə, ədəbiyyatımıza çox böyük ədəbi irs, böyük sərvət qoyub getmişdir.

Bu yaxınlarda Azərbaycanın xalq yazıçısı İ.Şıxlının 90 illik yubileyi onun vətəni Qazax rayonunda təntənəli şəkildə qeyd edilmişdir.

Mərasim İsmayıl Şıxlının adını daşıyan parkdan başlamış, yubiley iştirakçıları ölməz yazıçının abidəsini ziyarət edərək, onun heykəli önünə gül-çiçək dəstələri qoymuşlar.

Sonra mərasim rayon Mədəniyyət Sarayında davam etdirilmişdir.

Tədbirin aparıcısı, şair Barat Vüsal İsmayıl Şıxlının həyat və yaradıcılığı haqqında toplantı iştirakçılarına ətraflı məlumat verdi.

Qazax Rayon İcra Hakimiyyəti başçısı Rauf Hüseynov İsmayıl Şıxlı yaradıcılığı və şəxsiyyəti barədə danışdı.

Tədbirdə çıxış edən Azərbaycan -Türkiyə ədəbiyyatı araşdırıcısı, türkiyəli yazar Yasemin Bayerin, İctimai Televiziyanın müəllif verilişləri departamentinin direktor müavini, telejurnalist Qərənfil Xəlilovanın çıxışları çox maraqla qarşılandı.

Xalq yazıçısı Vidadi Babanlı İsmayıl Şıxlı ilə bağlı xatirələrini danışdı.

Şairlərdən Eldar Nəsiblinin, Barat Vüsalın İsmayıl Şıxlıya həsr etdikləri şeirlər də tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılandı.

Yazıçının oğlu, Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı ailəsi adından mərasimi belə yüksək səviyyədə təşkil etdiyinə görə Rayon İcra Hakimiyyətinin başçısı Rauf Hüseynova öz dərin təşəkkürünü bildirdi.

Tədbirin sonunda yubiley iştirakçıları rejissor Rövşən Almuradlının quruluşunda İsmayıl Şıxlının "Ölüləri qəbirstanlıqda basdırın" əsəri əsasında səhnələşdirilmiş tamaşaya baxdılar. Tamaşa Akademik Milli Dram Teatrı aktyorlarının ifasında hazırlanmışdır.

● K.ABDULLAOĞLU